Samir Neymanoğlu
Yol polisi nəzarətsiz qurma çevrilib
«Azadlıq» qəzeti, 9-11 avqust 2003

*Dünya bankının 2000-ci ildə «Korrupsiyaya dair hesabat»ında Azərbaycan prezidentinin və parlamentinin qəbul etdiyi sənədlərin korrupsiyaya şərait yaratması barədə fikirlər də yer alıb. Digər beynəlxalq institutların hesabatlarında isə Azərbaycanda polis reciminin hökm sürdüyü bildirilir. Bunu son günlər Dövlət Yol Polisinin müxalifət liderlərinin və media kapitanlarının hərəkətini məhdudlaşdırması bir daha təsdiqlədi. Bu araşdırmada da özünü qanun cəfakeşi kimi ictimaiyyətə təqdim edən yol polisinin ölkə qanunlarına münasibətindən bəhs edəcək. Bu fakt DYP-nin digər icra hakimiyyəti orqanlarının və bələdiyyənin səlahiyyətlərini mənimsəməsi, həmçinin onun qanundankənar fəaliyyəti ilə bağlıdır.*

Qanunsuz fəaliyyətə prezident «qayğı»sı

Ölkədə bütün əmlak alqı satqısı müqavilələri notarial qaydada təsdiq edildiyi halda, avtomobillərin özgəninkiləşdirilməsi və dəyəşdirilməsi əqdlərini DYP rəsmiləşdirir. Digər ölkələrdə olduğu kimi, Azərbaycan qanunvericiliyi də əhəmiyyətli əqdlərin təsdiqinin yalnız notarial formasını tanıyır. Əhəmiyyətsiz əqdlərdə isə belə forma tələb olunmur. DYP-nin bu fəaliyyəti Azərbaycan Konstitusiyasına, Mülki Məcəlləyə və «Notariat haqqında» qanuna zidd olsa da, ölkə başçısının 24 saylı 22 noyabr 1998-ci il tarixli fərmanı buna imkan yaradır. Yəni DYP-nin qanundankənar fəaliyyətini prezident rəsmiləşdirərək korrupsiya üçün geniş şərait yaradıb. DYP notariusda təsdiq olunmuş əqdlərə əsasən qeydiyyat şəhadətnaməsi verməli və qeydiyyat aparmalı olduğu halda, bu funksiyanı tamamilə özü həyata keçirir. Qanunvericiliyin kobud şəkildə pozulmasını Müstəqil Hüquqşünaslar Liqasının sədri İsaxan Aşurov belə şərh edir: «DYP-nin adıçəkilən funksiyanı yerinə yetirməsi ölkə qanunvericiliyi ilə yanaşı, alqı-satqı müqavilələrinin təbiətinə də ziddir. Bu fəaliyyət eyni zamanda mülki qanunvericiliyinin təbiətinə və ideyasına uyğun deyil. DYP-nin istinad etdiyi fərman və qərarlar «Normativ hüquqi aktların 2000-ci ildə qüvvəyə minməsi qaydası» qüvvəyə mindikdən sonra ləğv olunmalı idi». İ.Aşurovun sözlərinə görə, fəaliyyəti qanunla tənzimlənən notariatın səlahiyyətlərini DYP mənimsəyib və ən dəhşətli budur ki, notariat bu əqdlərin etibarlığını yoxlamaq hüququndan da məhrum edilib.

«Qayğının bəhrələri»

Aydındır ki, DYP-yə bu şərait məqsədsiz yaradılmayıb. «Yol hərəkəti haqqında» qanunun qəbul olunması Milli Məclisin üzvü Qulamhüseyn Əliyev belə xatırlayır: «Qanun MM-də qəbul olunarkən bu məsələ müzakirə predmetinə çevrildi. Amma deputatların əksəriyyəti polislərə səs verdi».

DYP isə verilən səlahiyyətdən sui-istifadə etməkdədir. Və bu istifadə büdcəyə baha başa gəlməklə yanaşı, ölkədə olan avtomobillərin az qala yarısı özgə adamların adına (əvvəlki sahiblərinin mülkiyyətində) olması ilə nəticələnib. Təkrar bazardan avtomobil əldə edənlərin tam əksəriyyəti əqdləri DYP-də rəsmiləşdirmək istəmir. Sadəcə, aldıqları maşınları notarial qaydada təsdiq olunmuş etibarnamə ilə istifadə etməyə üstünlük verirlər. Baş etibarnamə 3 il müddətinə verildiyindən avtomobil sahibləri öz sələflərini bu müddətdən sonra tapıb analoci addımı təkrar atmağa məcbur olurlar. Vətəndaşların öz əmlakını etibarnamə ilə idarə etməyə məcbur olmasının isə yalnız bir səbəbi var: «Dövlət rüsumu haqqında» qanunun 10.2.2-ci maddəsinə görə, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi müqaviləsinin təsdiqi üçün şərti maliyyə vahidinin 9 misli (49500 manat) tələb olunsa da, DYP bu əqidlərin

rəsmiləşdirilməsinə qanunvericilikdə nəzərdə tutulmayan digər «rüsumlar» da tətbiq edib. Respublika DYP-sində olarkən əqd sahibləri ilə söhbətimizdən məlum oldu ki, «Lada» markalı avtomobillərin təzəsinin rəsmiləşdirilməsi 300 dollara, köhnəsi isə 170-200 dollara başa gəlir. Məbləğin miqdarı təəccüb doğurmaya bilməz. Nəqliyyat vasitələrinin alqı-satqı əqdlərinin rəsmiləşdirilməsində hansı qanunvericilikdən istifadə olunduğu halda respublika DYP-yə müraciət etdik. İdarədən aldığımız 15/1518 saylı 13 may 2003-cü il tarixli məktubda deyilir: «Əqdlər «Yol hərəkəti haqqında», «Dövlət rüsumu haqqında» qanunlarla və Nazirlər Kabinetinin 39 saylı 15 mart 1999-cu il tarixli və 98 saylı 16 iyun 1999-cu il tarixli qərarları ilə tənzimlənir». Qeyd edək ki, DYP-nin istinad etdiyi Nazirlər Kabinetinin hər iki qərarı mətbuatda dərc edilməyib və onlar bu günə kimi ictimaiyyətdən gizlədilir. Nazirlər Kabinetinin mətbuat xidməti və DYP müxtəlif bəhanələrlə bu qərarları bizə verməkdən imtina etsələr də, ölkə qanunvericiliyinə daban-dabana zidd olan bu sənədləri əldə edə bildik. DYP-dən aldığımız məktubda isə əqdlərin rəsmiləşdirilməsi aşağıdakı rüsumların tətbiq olunduğu göstərilib:

| Ödəmələrin adı | Vəsaitin miqdarı |
|---|---|
| Dövlət qeydiyyatı nişanlarının verilməsi | 75.033 manat |
| Qeydiyyat şəhadətnaməsi (texpasport) | 62.424 manat |
| Texniki müayinədən keçmək üçün xidmət haqqı | 7.000 manat |
| Alqı-satqı müqavilələrinin rəsmiləşdirilməsi, avtomobilin qiymətinə nisbətdə | 2 faiz |
| Texniki baxış üçün talon | 2.800 manat |
| Mülkiyyət hüququnun rəsmiləşdirilməsi | 55.000 manat |
| Mühərrikdən aslı olaraq yerli bələdiyyələrin hesabına əmlak vergisi | Dərəcə göstərilməyib |

Qeyd edək ki, DYP-nin tətbiq etdiyi rüsum və ödəmələrdən yalnız ikisi – əmlaka mülkiyyət hüququnun rəsmiləşdirilməsi (hərçənd, burada da 49500 manat əvəzinə DYP-nin 55000 manat almasının səbəbi məlum deyil) və bələdiyyələrin hesabına əmlak vergisi qanunvericilikdə nəzərdə tutulub. Alqı-satqı əqdlərinin rəsmiləşdirilməsinə 2 faiz rüsumunun tətbiq edilməsi tamamilə qanunvericiliyinə ziddir. Dövlət nişanları üçün və texniki pasportların verilməsində tutulan rüsumları da DYP müstəqil müəyyən edib. Belə ki, DYP-nin istinad etdiyi fərman və qərarlarda bu barədə heç nə deyilmir. Əqdlərin dəyərinin 2 faizinin DYP-nin hesabına ödənilməsini özbaşnalıq adlandıran İ.Aşurovun sözlərinə görə, avtomobilin qiymətinin müəyyən edilməsində müstəsna səlahiyyətin yol polisinə verilməsi korrupsiyaya şərait yaradır.

Texniki baxış üçün tələb olunan xidmət haqqı və talonun qiyməti də gülməlidir. Üst-üstə texniki xidmət haqqı 9800 manat olduğu halda, bu xidmətin 50-100 min manata başa gəldiyi hər bir avtomobil sahibinə məlumdur. Ona görə də aztəminatlı avtomobil sahibləri texniki baxışdan qaçmağa məcbur olurlar. DYP-nin əməliyyatlardan əldə etdiyi vəsaitin xərc və ödəmə istiqaməti naməlum olaraq qalır. Qeyd edək ki, əqd sahiblərindən alınan məbləğ hər hansı rəsmi sənədlə təsdiq olunmur.

DYP bələdiyyələrin də hüququnu mənimsəyib, həm də onları aldadır

DYP-nin cavab məktubunda digər rüsumların ölçüsünə aydınlıq gətirilsə də, mühərrikin həcmindən asılı olaraq bələdiyyə vergisinin ölçüsünə aydınlıq gətirilmir. DYP-nin bələdiyyə vergisinin miqdarını açıqlamaması bizdə əlavə maraq doğurdu və bunu Bakı şəhərinin rayon bələdiyyələrinin birindən almaq qərarına gəldik. Xətai bələdiyyəsinin üzvü Rza Abdullayev bildirdi ki, 2002-ci ildə DYP onların hesabına 150.675 mln. manat vəsait ödəyib. Onun sözlərinə görə, DYP minik maşınları üzrə mühərrikin hər kubmetr həcminə görə 1000 manat ödəyir. Yük və sərnişin nəqliyyatı vasitələri üzrə vergilərin necə ödənildiyi bələdiyyə üzvlərinin özünə də məlum deyil. Ən dəhşətlisi odur ki, DYP bələdiyyədən Xətai rayonundakı avtomobillərin sayını da gizlədir.

R.Abdullayevin sözlərinə görə, DYP rayonda qeydiyyatda olan avtomobillərin sayı haqda məlumat verməkdən boyun qaçıraraq, ötən il yalnız 5 min avtomobil üçün vergi ödəyir, Xətai rayonunda qeydiyyatda olan avtomobillərin sayını DYP-də biz də dəqiqləşdirə bilmədik. Lakin Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, Bakı şəhərində 154.908 avtomobil var. Əgər Xətai rayonunun əhali baxımından paytaxtın təqribən onda biri həcmində olduğunu nəzərə alsaq, hər il 10 min avtomobildən alınan verginin bələdiyyədən gizlədildiyi məlum olar. DYP-nin bələdiyyə vergisinin yığım funksiyasını həyata keçirməsinə İ.Aşurovun münasibəti belədir: «DYP orqanlarının nəqliyyat vasitələrinin alqı-satqısını, bələdiyyə vergisinin yığım və s. funksiyaları həyata keçirməsi inhisarçılıqdır. Azərbaycan Konstitusiyası isə inhisarçılığı qadağan edir. Bildirmək istəyirəm ki, DYP-nin bu funksiyası avtomobil almaq istəyən hər bir şəxsin hüquqlarını məhdudlaşdırır. Bələdiyyəyə aid olan vergini DYP-nin toplaması, həmçinin bələdiyyə qanunvericiliyinin ideyasına ziddir».

«Bəhrənin» təqribi miqyası

DYP-nin notariatın, bələdiyyənin səlahiyyətlərini mənimsəməsindən tutmuş vətəndaşların aldadılmasına qədər bütün istiqamətlərdən əldə etdiyi vəsaitin həcmi dəqiq məlumat deyil. Hər halda, bu vəsait yol hərəkəti qaydalarının pozulmasından əldə olunan vəsaitlə müqayisədə çox böyükdür.

Bu gəlirlərin təqribi miqyasını müəyyən etmək üçün ötən ildə bağlanmış əqdlərin sayına diqqət yetirək. Dövlət Gömrük Komitəsinin «İdxal-İxrac əməliyyatları» hesabına görə, ötən il ölkəyə 11305 avtomobil idxal olunub. Və bunların təqribən 4 min ədədi uzaq xaricdən gətirilən bahalı avtomobillərin payına düşür. Belə avtomobillərin rəsmiləşdirilməsi isə artıq 300 dollar deyil, xeyli baha başa gəlir. Bəs təkrar bazarda nə qədər avtomobil alınır və satılır? İlkin bazarda müqayisədə təkrar bazarda daha çox alqı-satqı olsa da, onun əsasən, notarial qaydada rəsmiləşdirilməsi belə bir statistikanın aparılmasını mümkünsüzləşdirir. Baş etibarnamənin notarial təstiqi, təbii ki, qanunvericilikdə nəzərdə tutulduğu kimi, 22 min manata deyil, daha baha başa gəlir. Beləliklə, ölkə başçısının fərmanı daha bir qurumun qanunsuz qazancına yol açıb.